**Vergi işçisinin etik davranış Kodeksi**

Fəsil 1. Giriş

Vergi işçisinin etik davranış Kodeksi vergi işçisinin və Vergilər Nazirliyinin ölkəmizin inkişafında böyük rolu olduğu nəzərə alınmaqla hazırlanmışdır.

Vergi orqanları əməkdaşlarının ictimaiyyətin etimadını qazanması nazirliyin əsas məqsədlərindən biridir. Nazirliyin hər bir əməkdaşı ictimaiyyət tərəfindən göstərilən etimadı doğrultmalıdır. Bu isə işçi tərəfindən ona tapşırılmış işi səmərəli, effektiv və etik normalar çərçivəsində yerinə yetirdikdə mümkündür.

Vergi işçisi cəmiyyətdə yüksək mövqeyə malik olduğuna və vergi ödəyicisinin vəziyyətinə ciddi təsir göstərmək iqtidarında olduğuna görə öz fəaliyyətini yüksək səviyyədə həyata keçirməlidir. Vergi işçisinin ictimaiyyətlə əlaqədə atdığı hər bir addım özündə peşəkarlıq, nəzakət və ədalətli əks etdirməlidir.

Kodekslə həm vergi işçisinin davranış normaları, həm də bu normaların pozulmasına görə Azərbaycan Respublikasının Əmək Məcəlləsinə və «Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə»yə uyğun məsuliyyət müəyyən edilir. Kodeksdə yolverilməzliyi göstərilməmiş, lakin vergi işçisinin və ya nazirliyin nüfuzuna xələl gətirə bilən hərəkətə yol vermiş işçi qanunvericilikdə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyır. Vergi işçisinin etik davranış Kodeksinin müddəaları mahiyyət etibarilə əxlaqi və intizam xarakteri daşıyır.

Kodeksin hər hansı bir hissəsi başa düşülmədikdə onun aydınlaşdırılması işçinin, hər hansı müddəa ilə əlaqədar yaranmış çaşqınlığı aradan qaldırılmaq və işçiyə Kodeksin müddəaları çərçivəsində davranmaqda kömək etmək etik davranış məsələləri üzrə səlahiyyətli şəxsin və işçinin rəisinin vəzifəsidir.